

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# Şərq qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 50 (21.202)

*12 mart 2015-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətі 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin martın 11-də rəsmi qarşılanma mərasimi olub.

Martın 11-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin təkbətək görüşü olub. Görüşdə ölkələrimiz arasında dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq prinsiplərinə söykənən ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin geniş tərkibdə görüşü olub.

Həmin gün Prezident İlham Əliyevin və Prezident Məmnun Hüseynin geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Pakistan sənədlərinin imzalanması mərasimi keçirilib.

Martın 11-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn mətbuata bəyanatlarla çıxış ediblər.



## Narkotik və psixotrop dərman preparatlarının satışına nəzarət gücləndirilib



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Gömrük Komitəsinin Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin, habelə Azərbaycan Respublikası ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorlar barədə birgə iclası keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov dövriyyəsinə icazə verilməyən narkotik və psixotrop dərman preparatlarının muxtar respublika ərazisində satış və dövriyyəsinin qadağan edilməsi ilə əlaqədar görülən işlərdən danışmış, bununla bağlı Daxili İşlər Nazirliyi ilə 2010-cu ildə keçirilən birgə kollegiya iclasının mühüm əhəmiyyət kəsb etdiyini bildirmiş, həmin iclasda narkotik və psixotropların siyahısına bəzi əlavələr olunduğunu xatırlatmışdır.

Nazir bu problemin aktuallığı nəzərə alınaraq son vaxtlar bir sıra əczaxanalarda yoxlamaların aparıldığını bildirmişdir. Yoxlamalardan məlum olmuşdur ki, bəzi səhiyyə müəssisələrində xəstələrə yazılan nüsxələrdə, psixotrop dərman preparatlarının yazılış formalarında və dozalarında nöqsanlara yol verilir. Bir sıra həkimlər əczaçılarla əlbir fəaliyyət göstərərək firma dərmanlarının satışında subyektiv amillərə yol verirlər. Halbuki reseptlər klinik müalicə protokolları əsasında yazılmalı, xəstələr üçün dərman preparatları əlçatan olmalı, izafi dərmanlara yol verilməməlidir. İmtiyazlı xəstələr üçün nəzərdə tutulan dərman preparatlarının əczaxanalara yol tapması halları da istisna deyil. Belə hallara qarşı Daxili İşlər Nazirliyi və gömrük orqanları ilə həyata keçirilən tədbirlər öz bəhrəsini verir.

Sonra Daxili İşlər Nazirliyinin Narkotiklərlə mübarizə şöbəsinin rəisi Qasım Əsgərov, Dövlət Gömrük Komitəsinin Qaçaqmalçılıq şöbəsinin rəisi Əli Əliyev, Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinin baş həkimi Rəşadət Nabatov, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Əczaçılıq və özəl tibb müəssisələri sektorunun mudiri Hacı Əliyev çıxış etmişlər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Naxçıvan Dövlət Televiziyası ilə əczaxanalarda birgə reyd materialı nümayiş olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov və Naxçıvan Muxtar Respublikası Daxili İşlər naziri, polis general-leytenantı Əhməd Əhmədov çıxış edərək narkotik və psixotrop dərman preparatlarının muxtar respublika ərazisinə gətirilməsi, satışı, saxlanılması və dövriyyəsində yol verilmiş nöqsanlar, onların aradan qaldırılması üçün həyata keçiriləcək tədbirlər barədə danışmışlar.

Tədbirdə qərara alınmışdır ki, özəl və dövlət tibb müəssisələrinin rəhbərləri başçılıq etdikləri müəssisələrdə müalicə olunan stasionar, ambulator müalicə alan xəstələrə yazılan tələbnamələrin, nüsxələrin qanunauyğun şəkildə yazılmasına birbaşa nəzarəti həyata keçirməlidirlər. Bu nəzarət mütəmadi davam etdirilməlidir. Narkoloji xəstələr üçün ambulator və stasionar müalicə yalnız narkoloq həkim tərəfindən aparılmalıdır.

Sonda birgə keçirilən iclasın qərar layihəsi qəbul edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Dünən Babək Rayon İcra Hakimiyyətində 21 fevral 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədə verilən tapşırıqların icrası ilə bağlı yığıncaq keçirilib.*

## Müşavirədə qarşıya qoyulan vəzifələrin icrası ilə bağlı yığıncaq keçirilib



Tədbiri giriş sözü ilə Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev açaraq muxtar respublikamızda idmana göstərilən dövlət qayğısından danışıb, rayonda bu sahədə həyata keçirilən tədbirlərdən bəhs edib.

Babək Rayon Təhsil Şöbəsinin müdiri Kamil Kazımov çıxış edərək bildirib ki, son 20 il ərzində rayon Təhsil Şöbəsinin tabeliyində olan 36 ümumtəhsil məktəbindən 31-i və 1 şahmat məktəbi tikilərək və ya yenidən qurularaq şagirdlərin istifadəsinə verilib. Təhsilə və idmana göstərilən qayğının nəticəsidir ki, yeni tikilən məktəblərdə 26 idman zalı, 27 sadə idman qurğusu quraşdırılıb, məktəblərə 590 ədəd stolüstü şahmat, 72 ədəd ayaqlı şahmat və şahmat dərslərinin tədrisi üçün şahmat məktəbinə 11 dəst kompüter verilib. Hazırda məktəblərdə 837 saat şahmat dərsləri tədris olunur. Şahmat dərsləri Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkil etdikləri imtahanlarda yaxşı nəticə göstərərək sertifikat alan müəllimlər tərəfindən tədris olunur ki, onların da sayı 79 nəfərdir. Hazırda rayonun ümumtəhsil məktəblərində 55 nəfər ixtisaslı fiziki tərbiyə müəllimi fəaliyyət göstərir ki, onlardan 6 nəfəri qadındır.

Qeyd olunub ki, dövlətimiz tərəfindən təhsil və idman sahələrinə göstərilən qayğıya baxmayaraq, bu sahədə hələ də nöqsanlar mövcuddur. Belə ki, rayon Təhsil Şöbəsi tərəfindən aparılan monitorinqlər zamanı bir sıra məktəblərdə hələ də idman zallarından və açıq idman qurğularından lazımi səviyyədə istifadə olunmamasına rast gəlinir. Məktəbdaxili idman yarışlarının keçirilməsi qənaətbəxş deyil. Rayon Uşaq-gənclər idman məktəbində 1022 nəfər dərnəklərə cəlb olunub ki, onların arasında qızların sayı 137 nəfər təşkil edir. Bu, məktəbli qızların idman qruplarına tam cəlb edilməsinə ciddi yanaşılmadığını göstərir.

Vurğulanıb ki, adıçəkilən müşavirədə verilən tapşırıqların icrası üçün rayon Təhsil Şöbəsində 20 maddədən ibarət fəaliyyət planı hazırlanıb. Bu, rayondaxili və rayonlararası idman tədbirlərinin yüksək səviyyədə keçirilməsi üçün nəzərdə tutulub. Şöbə müdiri müşavirədə təhsil işçilərinin qarşısına qoyulan vəzifələrə daha ciddi yanaşacaqlarını, eləcə də idmanın kütləviliyinin təmin olunması üçün var qüvvələri ilə çalışacaqlarını bildirib.

Tədbirdə Babək Rayon Gənclər və İdman İdarəsinin müdiri Nazim Salmanlının, Uşaq-gənclər idman məktəbinin direktoru Füzuli Salmanovun, Uşaq-gənclər şahmat məktəbinin direktoru İbrahim Sultanovun çıxışları olub.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Piri Nağıyev, Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafına göstərilən hərtərəfli qayğıdan danışıblar. Bildirilib ki, belə qayğıdan Babək rayonuna da xeyli pay düşüb. Muxtar respublikanın digər rayonlarında olduğu kimi, Babək rayonunda da əsaslı təhsil və idman infrastrukturu yaradılıb. Qarşıda duran əsas vəzifə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə səslәndirilmiş nöqsanların tezliklə aradan qaldırılmasından ibarətdir.

Sonra mövzu ilə bağlı müzakirələr aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Tədbirə Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev yekun vurub.

***Xəbərlər şöbəsi***

## Yaşayış məntəqələrinin elektrik enerjisinə olan tələbatı tam ödənilir

Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində mühüm islahatlar həyata keçirilmiş, tələbatın yerli istehsal hesabına ödənilməsinə nail olunmuşdur. Naxçıvanın mövcud hidroenerji potensialından səmərəli istifadə edilməsi elektrik enerjisi istehsalını xeyli artırmışdır.

2015-ci ilin fevral ayı ərzində muxtar respublikanın elektrik şəbəkələrinə 31 milyon 463 min 800 kilovat-saat elektrik enerjisi daxil olmuşdur ki, bunun 42 min kilovat-saatı Naxçıvan Qaz Turbin Elektrik Stansiyasında, 21 milyon 978 min kilovat-saatı Naxçıvan Modul Elektrik Stansiyasında, 4 milyon 170 min 500 kilovat-saatı Araz, 1 milyon 41 min 300 kilovat-saatı Biləv, 428 min kilovat-saatı "Arpaçay-1", 16 min kilovat-saatı isə "Arpaçay-2" Su Elektrik stansiyalarında istehsal olunmuşdur. Qalan 3 milyon 788 min kilovat-saata olan tələbat isə İran İslam Respublikasından alınmış, mübadilə əsasında bu qonşu ölkəyə 3 milyon 917 min kilovat-saat elektrik enerjisi ixrac olunmuşdur.

Ötən ay ərzində elektrik enerjisi istehsalının həcminin artırılması məqsədilə stansiyaların işləkliyinə daim nəzarət edilmiş, generatorlar Araz Su Elektrik Stansiyasında 5-6 meqavat, Naxçıvan Modul Elektrik Stansiyasında 35-40 meqavat, Biləv Su Elektrik Stansiyasında 2-3 meqavat, "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarında isə 1-1,1 meqavat güclə işləmişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, transformator yarımstansiyalarında əsaslı və cari təmir işləri aparılmış, yeni transformator yarımstansiyaları quraşdırılmış və elektrik verilişi xətləri çəkilmişdir. Belə ki, bu ilin fevral ayında Kəngərli rayonunda 35 meqavolt-amper gücündə yeni 110 kilovoltluq "Qıvraq" yarımstansiyasında tikinti-quraşdırma işləri başa çatdırılmışdır. Hazırda yarımstansiyada 10 kilovoltluq çıxış kabelləri çəkilir və son sınaq-sazlama işləri görülür. Həmçinin rayondakı "Qıvraq" nasos stansiyasının elektrik təchizatı üçün də yeni 35/6 kilovoltluq 6300 kilovolt-amper güclü transformator yarımstansiyası quraşdırılır.

Bu sahədə işlər Babək rayonunda da davam etdirilmiş, 1260 kilovolt-amper gücündə 35/10 kilovoltluq yeni "Nehrəm" yarımstansiyasında tikinti-quraşdırma işləri başa çatdırılmış, növbətçi heyətin iş şəraiti xeyli yaxşılaşdırılmışdır.

Muxtar respublikanın digər şəhər, qəsəbə və kəndlərində 2 ədəd yeni transformator yarımstansiyası quraşdırılmış, 10,5 kilometr uzunluğunda yeni 10 və 0,4 kilovoltluq elektrik verilişi xətləri çəkilmiş, 1 kilometr uzunluqlu hava elektrik verilişi xətləri kabel xətti ilə əvəz edilmişdir. Ay ərzində Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 7 ədəd 10/0,4 kilovoltluq transformator əsaslı təmir olunub elektrik şəbəkələrinə qaytarılmışdır.

İstifadə olunan elektrik enerjisinin dəqiq uçotunu aparmaq üçün elektron sayğacların quraşdırılması işi ötən ay ərzində də davam etdirilmiş, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilmiş, elektrik enerjisindən istifadə olunması vəziyyətinin yoxlanılması üçün reydlər keçirilmişdir.

Agentliyin kollektivi istehlakçıların fasiləsiz elektrik enerjisi ilə təmin olunması üçün qarşıda duran vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti***

12 mart Daxili Qoşunlar Günüdür

# Daxili Qoşunlar ictimai sabitliyin təminatçısıdır

*Ümummilli liderimiz Heydər Əliyevin 1995-ci il 9 mart tarixli Fərmanı ilə hər il mart ayının 12-si “Azərbaycan Respublikasının Daxili Qoşunlar Günü” kimi qeyd olunur.*

1991-ci ilin dekabr ayında keçmiş SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı şəhərində yerləşən 5-ci diviziyası buraxılmış və şəxsi heyətinin ümumi sayı 2500 nəfər olan üç hərbi hissə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tabeliyinə verilmişdir. 1992-ci il martın 12-də Daxili Qoşunların hərbi hissələri ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizəyə qoşulmuş, şəxsi heyət döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərmişdir.

Azərbaycanda Daxili Qoşunların formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin diqqət və qayğısı ilə Daxili Qoşunlar böyük inkişaf yolu keçmiş, hərbi hissələrin müasir standartlar səviyyəsində qurulması istiqamətində tədbirlər görülmüş, bu sahənin fəaliyyətini tənzimləyən hüquqi baza yaradılmışdır. 1994-cü il fevralın 8-də qəbul edilmiş “Daxili Qoşunların statusu haqqında” Azərbaycan Respublikasının Qanunu Daxili Qoşunların əsas funksiyalarını, vəzifələrini, fəaliyyət prinsiplərini müəyyən etmişdir. Daxili Qoşunları xalqın və dövlətin layiqli müdafiəçisinə çevirməyin vacibliyindən danışan ulu öndərimiz demişdir: ***“Daxili Qoşunlarda yüksək vətənpərvərlik ruhu vardır. Bizim Silahlı Qüvvələrimizdə, eyni zamanda Daxili Qoşunlarda Azərbaycanın dövlətçiliyinə, Azərbaycanın Ali Baş Komandanına yüksək sədaqət ruhu formalaşıb”.***

Ulu öndərimiz tərəfindən əsası qoyulan ordu quruculuğu prosesi bu gün ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının diqqət və qayğısı ilə Azərbaycan Silahlı Qüvvələrinin mühüm tərkib hissəsi olan Daxili Qoşunların təkmilləşdirilməsi istiqamətində də əhəmiyyətli tədbirlər həyata keçirilir, bu sahənin maddi-texniki bazası gücləndirilir.

1995-ci il aprel ayının 10-da Daxili Qoşunların Naxçıvandakı “N” hərbi hissəsi, 2002-ci il dekabr ayının 4-də hərbi hissənin bazasında Daxili Qoşunların Naxçıvan Alayı, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 sentyabr tarixli Sərəncamı ilə isə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası yaradılmışdır. Ötən dövrdə briqada qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirmiş, ictimai asayişin qorunmasında zəngin xidməti təcrübə toplayaraq hərbi qulluqçuların döyüş hazırlığının təkmilləşdirilməsində mühüm nailiyyətlər qazanmışdır.

Bu gün Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası müasir maddi-texniki bazası, yüksək döyüş qabiliyyəti ilə seçilir. Son illər briqadanın ərazisində müasir standartlara uyğun yaşayış binaları, yeməkxana, anbarlar, müasir qazanxanalar və digər sosial-məişət obyektləri inşa edilmiş, hərbi hissə abad və yaraşıqlı bir şəhərciyə çevrilmişdir. Zabit-gizir ailələrinin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə 60 mənzildən ibarət beşmərtəbəli və 12 mənzildən ibarət üçmərtəbəli yaşayış binaları istifadəyə verilmişdir. Hazırda 45 mənzilli beşmərtəbəli yaşayış binasının tikintisi davam etdirilir.

Daxili Qoşunların müasir döyüş texnikaları ilə təmin olunması da diqqət mərkəzində saxlanılır. Bu gün briqadada xidməti vəzifələrin yerinə yetirilməsi üçün lazımi şərait yaradılmışdır. Şəxsi heyətin geyimi, qidalanması, yaşayış və məişət şəraiti diqqət mərkəzində saxlanılır. Bütün bu qayğılar şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini daha da yüksəldir, ciddi nizam-intizam formalaşdırır. Bu gün döyüş qabiliyyəti kifayət qədər yüksək olan briqadanın şəxsi heyəti qarşıya qoyulmuş vəzifələri istənilən anda uğurla yerinə yetirməyə qadirdir. 2014-cü ildə keçirilən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən birləşmə və hissələrinin birgə təlimində Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası öz fəallığı ilə seçilmişdir. Təlimdə müasir texnikaların döyüş imkanları nümayiş etdirilmiş, müxtəlifçaplı silahlardan atəş açılmış, təyin olunmuş hədəflər dəqiqliklə məhv edilmişdir. Briqadanın şəxsi heyəti xidməti döyüş fəaliyyətində, hərbi intizamın möhkəmləndirilməsində yüksək nəticələrə nail olmuş, 2013-2014-cü tədris ilinin yekunlarına görə, qabaqcıl yerlər tutaraq bir sıra dövlət mükafatları və fəxri fərmanlarla mükafatlandırılmışdır.

Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının zabitlərinin əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, 1 hərbi qulluqçu “Hərbi xidmətlərə görə” medalı ilə təltif olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Daxili Qoşunlar ölkəmizdə, eləcə də muxtar respublikamızda daxili intizam tədbirlərini yerinə yetirməklə yanaşı, lazım gələrsə, ərazi bütövlüyümüzün qorunmasında da yaxından iştirak etməlidirlər. Bunun üçün hərtərəfli şərait yaradılmış, hərbi hissələr lazımi avadanlıqlar, silah-sursat və döyüş texnikaları ilə təmin edilmişdir. Hər bir əsgər və zabit öz vəzifə borclarını dərindən bilməli, silah və texnikalardan istifadə imkanlarını yaxşı mənimsəməlidirlər”.***

İnanırıq ki, ümummilli liderimizin ideyalarına sadiq qalan Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, cəmiyyətin və dövlətin mənafeyini, eləcə də vətəndaşların hüquq və azadlıqlarını etibarlı qoruyacaqdır.

**“Şərq qapısı”**





Vətən sərhəddən başlanır

# Müqəddəs sərhədlərimizin keşikçiləri

***“Sərhəd” anlayışı hər bir xalq üçün müqəddəs və əzizdir. Ona görə müqəddəsdir ki, sərhədlər aid olduğu ölkənin müstəqilliyinin hökm sürdüyü ərazinin bütövlüyünü, eyni zamanda bu ərazinin toxunulmazlığını bildirir. Ona görə müqəddəsdir ki, bu ərazinin sərhədləndiyi yer hər birimizin doğulub boya-başa çatdığımız Vətən torpaqlarıdır.***

Naxçıvanın sərhədləri bizim üçün, sözün bütün mənalarında, çox yaxındır. Birinci ona görə ki, ərazicə kiçik olan bu torpaqda elə bir kəs tapmaq mümkün deyil ki, bu sərhədləri görməsin və ya ömründə bir dəfə olsun, bu sərhədlərdən keçid kimi istifadə etməsin. İkinci tərəfdən isə buradakı sərhədlərimiz ən yaxın tariximizin yazıldığı yer kimi bu gün hərtərəfli inkişaf edən “Azərbaycan” adından əvvəl “müstəqil” kəlməsinin yazılması və deyilməsinə səbəb olub. Azərbaycanı, eləcə də Naxçıvanı tanımayan bir əcnəbidə, bəlkə də, bu fikirlər bir az qəribə təsəvvür oyada bilər. Ancaq fakt ondadır ki, bir zamanlar “topdağıtmaz imperiya” kimi düşüncələrə hakim kəsilmiş SSRİ imperiyasının çöküşü də bu sərhədlərdən başlamışdı. Dolayısı ilə Naxçıvanın sərhədləri təkcə Azərbaycanın deyil, imperiya daxilində birləşən digər müttəfiq respublikaların da sərhədlərinin öz sahiblərinin nəzarətinə qaytarılmasında böyük rol oynamışdı. Bu gün isə muxtar respublikanın cənub və cənub-qərb ərazilərini əhatə edən 215 kilometrlik sərhədləri təkcə ölkə əhəmiyyətli deyil, həm də Cənubi Qafqaz və Şərq-Qərb tranziti üçün mühüm geostrateji əhəmiyyətə malik bir keçid qapısıdır. Bu qapıları isə başı üzərində üçrəngli bayrağı dalğalanan Azərbaycan əsgərləri qoruyur.

***“Müstəqil Azərbaycan Respublikası öz ərazisinin, sərhədlərinin sahibidir, müstəqil dövlət kimi öz sərhədlərini qorumalıdır və bunun üçün də sərhəd dəstələri, sərhəd qoşunları yaradılmışdır”.*** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin söylədiyi bu fikirlər bir daha ölkə sərhədlərinin toxunulmazlığının vacibliyini bildirməklə bərabər, onun etibarlı qorunmasını da qarşıya müqəddəs vəzifə olaraq qoyur.



Müstəqilliyimizin bərpasından sonra muxtar respublikamızda sərhəd dəstəsi hələ 1920-ci ildən fəaliyyət göstərən və keçmiş Sovet İttifaqına mənsub olan 41 nömrəli Naxçıvan Sərhəd Dəstəsinin maddi-texniki bazası əsasında yaradılıb. Ulu öndər Heydər Əliyevin böyük səyi və nüfuzu sayəsində ölkənin digər yerlərindən fərqli olaraq, blokada vəziyyətinə salınmış Naxçıvan Muxtar Respublikasında sovet sərhəd qoşunlarına məxsus bütün maddi-texniki baza saxlanılaraq sərhəd dəstəsinin bütün əmlakı Azərbaycan Respublikasının sərəncamına keçib. Sonrakı illərdə sərhəd qoşunlarında aparılan islahatlar ordu quruculuğu inkişafının yeni mərhələsinə qədəm qoyması ilə nəticələnib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 14 yanvar tarixli Fərmanı ilə Naxçıvan Sərhəd Dəstəsinin bazasında “Naxçıvan” Sərhəd Diviziyası yaradılıb. Hazırda Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin “Naxçıvan” Sərhəd Diviziyası Naxçıvan Muxtar Respublikasında onlara həvalə edilmiş sərhəd xəttini layiqincə mühafizə edir. Müqəddəs sərhədlərimizin qoruyucuları ilə görüşümüzün budəfəki ünvanı isə Culfa sərhəd zastavası oldu.

Məlumat üçün deyək ki, muxtar respublika ərazisində yerləşən digər sərhəd məntəqələrində olduğu kimi, Culfa Sərhəd Komendantlığında və sərhəd zastavasında da geniş quruculuq işləri aparılıb, 2012-ci il mayın 30-da ölkə başçısı cənab İlham Əliyevin muxtar respublikaya səfəri zamanı kompleksin açılış mərasimi olub. Buradakı sərhəd komendantlığı dörd binadan – qərargah, yardımçı, texniki və yaşayış binalarından ibarətdir. İkimərtəbəli qərargah binasında komendantlığın fəaliyyəti üçün hər cür şərait var. Eyni zamanda burada müxtəlif sinif otaqları yaradılıb, həmin sinif otaqları əyani vəsaitlərlə təchiz olunub. Əsgər yataqxanasında isə şəxsi heyətin istirahətinin və asudə vaxtının yüksək səviyyədə təşkil olunması üçün bütün tələblər nəzərə alınıb. Bundan əlavə, kompleksin ərazisində hamam, ərzaq məhsulları anbarı və xüsusi geyim əşyaları üçün bölmələr var. Əsgər yeməkxanası da müasir tələblər səviyyəsində qurulub.

Zastavanın zabiti, baş leytenant Şahmar Pənahov bildirir ki, xidmət üçün burada hərtərəfli şərait yaradılıb. Zastavanın maddi-texniki təchizatı yüksək səviyyədədir, əsgərlərin fiziki və psixoloji hazırlığı, asudə vaxtlarının səmərəli təşkili üçün lazımi infrastruktur yaradılıb. Bütün bunlar isə sərhədlərimizin etibarlı şəkildə qorunmasına imkan verir.

Yataqxana binasına daxil oluruq. Bir-birindən yaraşıqlı xidməti otaqlar, muxtar respublikanın təbiət və tarixi abidələrini özündə əks etdirən divar fotoşəkilləri, yüksək təchizatlı rabitə otağı, yataqxana hissəsində isə səliqə ilə düzülmüş çarpayılar sərhədçi səliqəsini bir daha gözlərimiz önünə gətirir.

Sinif otaqları ilə də tanış oluruq. Müsahibimiz məlumat verir ki, burada əsgərlərə döyüş hazırlığı, ictimai hazırlıq dərsləri keçilir. Əsgərlərə sərhədçi peşəsinin dərindən mənimsədilməsi bu gün qarşımızda duran əsas vəzifələrdəndir. Çünki yalnız hazırlıqlı, təlim görmüş əsgər sərhəddə yüksək səviyyəli xidmət apara bilər. Zabitlərimizin hər bir əsgərə fərdi qayğısı, onlarla yaxından maraqlanmaları, bilik və bacarıqlarını böyük maraqla onlara öyrətmələri əsgərlərimizin yüksək hazırlıqlı və peşəkar sərhədçi kimi yetişmələrində mühüm rol oynayır. Müxtəlif ideoloji yönümlü dərslərin keçilməsi, dövri mətbuatın, televiziyanın izlənməsi, şəxsi heyətlə vətənpərvərlik mövzusunda söhbətlərin aparılması əsgərlərin hərtərəfli hazırlığında rol oynayan mühüm amillərdəndir.



Zastavada olduğumuz müddətdə öyrənirik ki, burada günün rejim qaydaları “Naxçıvan” Sərhəd Diviziyasından fərqlidir. Belə ki, buradakı əsgərlər hər gün sərhəddə xidmət apardıqlarına görə onlar üçün günün nizam qaydaları zastava şəraiti üçün qəbul olunmuş qaydalara əsaslanır. Sərhədçi əsgərlərlə də söhbət edirik. Emil Məmmədov Quba, Qəhrəman Rəsulzadə Zərdab, Xəzər Şirinov Bakı şəhərinin Xəzər, İsmayıl Məmmədov isə Göyçay rayonundandır. Onlar içərisində Xəzər Şirinov 15 aylıq müddətlə ən çox xidmət edən əsgərlərdəndir. Həmsöhbətlərimiz xidmətlərindən çox razılıqla danışırlar. Onlar üçün burada yaradılmış şəraitdən, zabitlərin onlara doğma münasibətindən, sərhəddə xidmətin məsuliyyətindən ağızdolusu bəhs edirlər. Hiss olunur ki, bu əsgərlər əsl sərhədçi kimi formalaşıblar. Hər biri hərbi xidmətdə qazandıqları təcrübənin mülki həyatda da böyük rol oynayacağını düşünür. Ailələri ilə taksafon xidməti vasitəsilə əlaqə yaratdıqlarını deyən sərhədçilər, əsgər ənənələrini pozmayaraq evə məktub yazdıqlarını da bildirirlər. Biz isə onların növbədən yeni gəldiklərini nəzərə alıb, istirahətlərinə müdaxilə edib vaxtlarını çox almaq istəmirik. 5-10 dəqiqəlik söhbətdən sonra hər birinə yaxşı istirahət və sayıq xidmət arzulayıb oradan ayrılırıq...



***Bu gün müqəddəs sayılan sərhədlərimizin milli sərhədçilərimiz tərəfindən qorunması hər birimizdə qürur hissi oyadır. Bu hissi yaşamaq üçün heç də sərhədçi olmağa ehtiyac yoxdur. Sərhəd zastavalarında dalğalanan üçrəngli bayrağımızı və bu bayrağın altında xidmət aparan sərhədçilərimizi uzaqdan görmək də bu hissi bizə yaşatmağa qadirdir.***

**Səbuhi HƏSƏNOV**



## İqtisadiyyat

# Tədbirlər planının uğurlu icrası nağdsız ödənişlərin həcmini artırıb

*Ölkədə nağd pul dövriyyəsinin miqyasının böyük olması iqtisadiyyatı iri həcmdə investisiya-kredit resurslarından məhrum edir, bank sisteminin maliyyə vasitəçiliyini məhdudlaşdırır. Eyni zamanda nağd pul dövriyyəsinin üstünlük təşkil etməsi bir sıra struktur problemlərin, o cümlədən maliyyə intizamının pozulması, şəffaflığın aşağı olması, qeyri-mütəşəkkil pərakəndə ticarətin üstünlük təşkil etməsi və digər bu kimi problemlərin yaranmasına səbəb olur.*

Qeyd etmək lazımdır ki, kartlardan istifadə səviyyəsinin artımı ilə istehlak, iqtisadi artım arasında elastiklik əlaqəsi güclüdür. Və beynəlxalq təcrübəyə əsaslanaraq demək olar ki, kartlardan istifadə səviyyəsinin 1 faiz artması istehlakın 0,056 faiz, iqtisadi artımın isə 0,035 faiz artımı ilə nəticələnir.

Məhz bu səbəbdəndir ki, son illər bir sıra ölkələr nağdsız ödənişlərin artırılmasını prioritet hədəf kimi qəbul etmişlər. Ölkələr nağdsız ödənişləri inkişaf etdirməklə kölgə iqtisadiyyatını azaltmağa, iqtisadi rifahı yaxşılaşdırmağa və iqtisadi artımı stimullaşdırmağa çalışırlar. Nağdsız ödənişlər iqtisadi artıma bir sıra kanallar vasitəsilə təsir edir. İlk növbədə, nağdsız ödənişlərin həcmi artdıqca ödəniş sistemləri daha effektiv şəkildə fəaliyyət göstərməyə başlayır və xərclərin azaldılması imkanları yaranır. Digər tərəfdən, ödəniş sistemlərinin inkişafı əhalinin kreditə çıxış imkanlarını artırır və bu zaman kartlar asan ödəniş vasitəsi kimi çıxış edir. Nəticədə, ev təsərrüfatlarının istehlakı artır. Bu isə mal ehtiyatını azaldır və istehsal templərinin artırılması üçün siqnal rolunu oynayır.

Bu gün regionun ən böyük iqtisadi gücü olan, beynəlxalq iqtisadi arenada öz iqtisadi inkişafı ilə çoxlarına nümunə olan ölkəmiz bu iqtisadi axından kənarda qala bilməz. Beynəlxalq təcrübə də göstərir ki, nağdsız ödənişlər iqtisadi artıma o zaman təsir edir ki, ölkədə müəyyən ödəniş infrastrukturu, istifadə bacarıqları, institusional mühit yaradılsın.

Məhz bu faktorları nəzərə alaraq, muxtar respublikamızda da nağdsız ödənişlərin iqtisadiyyatdakı çəkisini artırmaq üçün 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş mexanizminin formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı" təsdiq edilmişdir. Tədbirlər planında maliyyə sektorunun aparıcı subyektləri olan banklar və digər maliyyə təsərrüfatları tərəfindən nağdsız ödəniş sisteminin tətbiqinin texniki tərəflərinin həll edilməsi ilə yanaşı, ictimaiyyətin maarifləndirilməsi və maraqlandırılması istiqamətində də geniş təbliğat-təşviqat işlərinin aparılması nəzərdə tutulmuşdur.

Tədbirlər planının 2013-2014-cü illər üçün birinci mərhələsində bank sektoru tərəfindən icrası nəzərdə tutulmuş tədbirlər müvəffəqiyyətlə başa çatdırılmışdır. Bu hissə sonrakı dövrdə icra olunması nəzərdə tutulan tədbirlər üçün stimullaşdırıcı rol oynamışdır. Tədbirlər planının icrası zamanı nağdsız ödənişlərin inkişafını şərtləndirən dörd əsas amil: institusional mühit, infrastruktur, təklif və istifadə səviyyəsi nəzərdən keçirilmişdir.

Belə ki, ilkin mərhələdə infrastruktur imkanlarının genişləndirilməsi prosesi həyata keçirilmiş və "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinə bir neçə bank xidmətinin göstərilməsi imkanları yaradılmış, muxtar respublikada əhalinin maliyyə xidmətlərinə çıxış imkanları genişləndirilmişdir.

Bu müddət ərzində ödəniş alətləri infrastrukturunun genişləndirilməsi də diqqət mərkəzində olmuşdur. Əsas ödəniş alətlərindən sayılan POS-terminalların sayı 460-ı Naxçıvan şəhəri, 407-si isə rayon mərkəzləri və kənd yaşayış məntəqələrində olmaqla, 867 ədədə çatdırılmışdır. Vətəndaşların kommunal xərcləri ödənişlərinin rahat şəkildə təmin edilməsi məqsədilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətində 104 ədəd, "Naxçıvanqaz" İstehsalat Birliyində 39 ədəd və Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində 21 ədəd POS-terminal quraşdırılmışdır. Eyni zamanda kommunal xidmət haqlarının internet üzərindən elektron ödəniş sistemləri vasitəsilə ödənilməsi imkanları da yaradılmışdır.

Bundan başqa, digər ödənişlərin nağdsız qaydada aparılması məqsədilə müvafiq addımlar atılmışdır. Görülmüş işlər sayəsində muxtar respublika sakinləri ödəniş kartları vasitəsilə vergi və rüsumlarını, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumları, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və yerli şöbələrinə sosial sığorta haqlarını və gömrük rüsumlarını elektron ödəniş formasında ödəyə bilirlər. Eyni zamanda bu müddət ərzində dövlət orqanlarının inzibati xərclərinin də (təsərrüfat, yanacaq, nümayəndəlik və sair) korporativ kartlar vasitəsilə ödənilməsi üçün lazımi şərait yaradılmışdır.

Nağdsız ödəniş infrastrukturunun tərkib hissələri olan bankomat və ödəniş kartlarının sayı da artırılmışdır. Belə ki, bankomatların sayı 53-ü Naxçıvan şəhərində, 39-u isə rayon və kənd yaşayış mərkəzlərində olmaqla, 92 ədəd təşkil etmişdir. Dövlət sektorunda əməkhaqlarının nağdsız üsullarla ödənilməsi istiqamətində də işlər davam etdirilmiş və yekunlaşdırılmışdır. Nəticə etibarilə, ödəniş kartlarının sayı muxtar respublika üzrə 202 min 928 ədədə çatdırılmışdır. Tədbirlər planının icrasının növbəti mərhələsində isə qeyri-dövlət sektorunda işləyənlərin əməkhaqlarının nağdsız qaydada ödənilməsinin davam etdirilməsi əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Tədbirlər planının icrası zamanı muxtar respublikada fəaliyyət göstərən banklar vətəndaşlara müasir və keyfiyyətli bank xidmətləri təklif etməklə öz müştəri auditoriyasını genişləndirməyə də nail olmuşlar. Bu müddət ərzində keyfiyyətli bank xidmətlərindən faydalanmaq məqsədilə vətəndaşlar tərəfindən 17974 bank hesabı açılmışdır ki, onlardan da sahibkarlıqla məşğul olanların sayı 4483-dür.

Əlbəttə ki, nağdsız ödənişlərin inkişafı üçün lazımi infrastrukturun yaradılması ilə birgə, maarifləndirici tədbirlərin keçirilməsi və institusional mühitin formalaşdırılması da zəruridir. Bu baxımdan tədbirlər planının icrasının ilkin mərhələsində nağdsız ödəniş alətlərindən istifadə vərdişlərinin kütləvi təbliği ilə əlaqədar muxtar respublikanın şəhər və rayonlarında əhali arasında maarifləndirici tədbirlər keçirilmiş, ümumtəhsil və ali təhsil müəssisələrində nağdsız ödəniş vərdişlərini inkişaf etdirən xüsusi məşğələlər təşkil edilmişdir. Bütün bunlarla yanaşı, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən ödəniş alətlərinin üstünlükləri ilə bağlı təbliğat materialları mütəmadi olaraq yerli mətbuat, radio və televiziya vasitəsilə əhaliyə təqdim edilmişdir. Əhali ilə yanaşı, ödəniş kartları sahəsində çalışan bank əməkdaşlarının bilik və bacarıqlarının yüksəldilməsi məqsədilə Azərbaycan Bank Tədris Mərkəzindən cəlb edilmiş mütəxəssislərin iştirakı ilə treninqlər keçirilmişdir.

Tədbirlər planının əsas tərkib hissələrindən biri də kart sahibləri arasında stimullaşdırıcı tədbirlərin keçirilməsidir. Bu baxımdan muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən müvafiq addımlar atılmışdır. Ötən dövr ərzində "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinə məxsus ödəniş kartları ilə alış-veriş zamanı aparılan əməliyyatlara 5 faiz həcmində güzəştlər tətbiq olunmuşdur. 2014-cü ilin birinci və ikinci yarımillərinin yekunlarında isə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin birgə apardığı tədbirlərin nəticəsi olaraq, muxtar respublikada nağdsız ödənişlər istiqamətində seçilmiş vətəndaşlara hədiyyələr verilmişdir.

Əgər 2014-cü ilin yanvar ayında muxtar respublika üzrə aparılmış nağdsız əməliyyatların həcmi 246 min manat təşkil edirdisə, bu göstərici dekabr ayında 1 milyon 780 min manat olmuşdur. Ümumilikdə, 2014-cü il ərzində muxtar respublika üzrə aparılmış nağdsız əməliyyatların həcminin 12 milyon 513 min manat olması onu deməyə əsas verir ki, tədbirlər planının icrası müvəffəqiyyətlə davam etdirilir.

Ancaq infrastrukturun genişləndirilməsinə, institusional mühitin formalaşdırılmasına və stimullaşdırıcı tədbirlərin mütəmadi şəkildə aparılmasına baxmayaraq, hələ də bu sahədə çatışmazlıqlar vardır. Buna səbəb isə məhz ictimaiyyətin hələ də nağdsız ödənişlərə tam olaraq üstünlük verməməsidir. Hələ də bankomatların qarşısında nağd pul çəkmək üçün növbələrin yarandığını müşahidə etmək mümkündür. Bankomatdan, sadəcə, nağd pul çəkmək üçün istifadə edən vətəndaşlarımız isə kifayət qədərdir. Halbuki "bankomat" adlanan bu ödəniş aləti, əslində, bir çox nağdsız əməliyyatları həyata keçirməyə də imkan verir.

Bütün bu problemlərin həllində ziyalılarımızın da üzərinə böyük məsuliyyət düşür. Cəmiyyətdə hər zaman fikirlərinə böyük etimad göstərilən ziyalılarımızın və bu istiqamətdə tədbirlər planında üzərinə vəzifə qoyulan bütün strukturların birgə fəaliyyəti nəticəsində gələcək müddət ərzində böyük uğurlara nail olmaq mümkündür.

*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin də qarşıya qoyduğu əsas məqsədlərdən biri məhz tədbirlər planında nəzərdə tutulmuş digər tədbirlərin 2015-ci ildə uğurla davam etdirilməsi və müvəffəqiyyətlə başa çatdırılmasıdır.*

**Elçin ƏLİYEV**
***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin aparıcı mütəxəssisi***

---

***Muxtar respublikamızda daxili bazarın yerli ərzaq məhsulları ilə təmin olunmasında təzə meyvə-tərəvəz məhsullarının istehsalının mühüm əhəmiyyəti vardır. Əhalinin gündəlik istehlak tələbatında mühüm paya sahib olan təzə tərəvəz məhsullarının istehsal olunaraq ilboyu münasib qiymətlərə satışını təşkil edə bilmək üçün yaradılmış istixana təsərrüfatlarının bazara çıxardığı təzə tərəvəz məhsulları artıq hər bir naxçıvanlının süfrəsini bəzəyir.***

# Bazarda yerli məhsul bolluğu yaradılır



Naxçıvanda istixana təsərrüfatlarının yaradılması muxtar respublikanın idxaldan asılılığının aradan qaldırılması istiqamətində həyata keçirilmiş mühüm layihələrdəndir. Ötən illərdə, xüsusən qış aylarında müxtəlif yerlərdən gətirilmiş və mənşəyi məlum olmayan tərəvəzlərin satıldığı dükan-bazarlarda yerli mal axtaran alıcılar artıq bütün qışboyu doğma Naxçıvan torpağının məhsulu olan müxtəlif tərəvəz məhsullarını almışlar.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyindən aldığımız məlumata əsasən, hazırda Naxçıvan şəhəri, Şərur, Babək, Culfa, Kəngərli rayonlarında olmaqla, regionun müxtəlif yerlərində tərəvəz, göbələk və gül kələm istehsalı üzrə 9 istixana təsərrüfatı fəaliyyət göstərir. Bu təsərrüfatlarda cari ilin əvvəlinədək 452 ton məhsul yetişdirilmiş və əhaliyə satışı həyata keçirilmişdir. Şübhəsiz, bu müəssisələrin yaradılması davamlı dövlət dəstəyi sayəsində mümkün olmuşdur. Belə ki, təkcə 2014-cü ildə Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına sahəsi 47140 kvadratmetr olan 3 istixananın qurulmasına 550 min manat güzəştli kredit verilmişdir. Bu sahədə fəaliyyətin daha da genişləndirilməsi məqsədilə 2015-ci ildə yaradılması davam etdirilən və ümumilikdə, sahəsi 2400 kvadratmetr olan 2 istixananın qurulmasına 265 min 500 manat güzəştli dövlət maliyyə dəstəyi göstərilmişdir. Ümumilikdə isə 2000-2014-cü illərdə sahəsi 94036 kvadratmetr olan istixanaların qurulmasına 4 milyon 290 min 500 manat güzəştli kredit verilmişdir.

Bəli, göstərilən dövlət qayğısı qısa müddətdə öz bəhrəsini vermişdir. Yerli tərəvəz məhsulları istehsalçıları bu sahədə onlara göstərilən qayğıdan razılıq edirlər. Qeyd edək ki, Novruz bayramı ərəfəsində bazarda bu sahədə tələbatın artması da gözlənilir. Buna müvafiq proqnozlar bunu deməyə əsas verir. Aldığımız məlumatda bu mövsümdə, ümumilikdə, 1800 ton məhsul yığımı gözlənildiyi bildirilir.

Muxtar respublikamızda istixana təsərrüfatı ilə məşğul olan sahibkarlardan biri də Elçin Bağırovdur. O artıq üç ildir ki, işlə məşğul olur. Naxçıvan şəhərində 1,1 hektar və Kəngərli rayonunun Böyükdüz kəndində 4,6 hektar sahədə istixanaları vardır.

Sahibkarla söhbətimizdə deyir ki, Naxçıvanda əhalini ekoloji təmiz ərzaq məhsulları ilə təmin etmək üçün istixanaların yaradılması mühüm əhəmiyyət kəsb edir. Biz uzun illər bazarda mənşəyini bilmədən nə gəldi, alıb-satdıq. Hər qış fəsli gələndə yerli məhsul tükənəndən sonra boyu az qala yarım metrə çatan idxal göyərtilər, keyfiyyətsiz tərəvəzlər bazarlarımızda dolub-daşdı. Dadı-tamı bir yana, hələ onların kimyəvi tərkibi də insan üçün çox təhlükəlidir. Halbuki bizdə insanlar meyvə-tərəvəzi çox xoşlayır və Naxçıvanda bu sahədə geniş bazar vardır.

Böyükdüz kəndi ərazisindəki istixana ilə bizi tanış edərək müsahibim onu da bildirdi ki, buranın qurulmasında hər kiçik ehtimal nəzərə alınmışdır. Hava-iqlim şərtləri ilə yanaşı, torpağın kimyəvi tərkibi, istifadə olunan mineral gübrələrin norması, temperatur, nəmlik, bakterioloji şərait tam avtomatik cihazlarla tənzimlənir. Burada yetişdirilən tərəvəzin suyu isə Qarabağlar kəndindəki kəhrizlərdən çəkilmiş su kəmərindən damcı üsulu ilə verilir. İstixanalarda 51 nəfərə yeni iş yeri yaradılmışdır. İndi istixana məhsulları mövsümünün ən yaxşı vaxtıdır. Hər gün bazara 2-3 ton təzə pomidor, xiyar, çiyələk, kahı, gül kələm çıxarırıq. İstixanalarda əlavə olaraq yazlıq mövsüm üçün müxtəlif növ şitillərin yetişdirilməsinə də başlanılmışdır. Çox yerdən sifarişlərimiz var. Beləliklə, göstərilən qayğının, çəkilən zəhmətin bəhrəsi hədər getmədi: gözəl, ekoloji təmiz karton taralarda qablaşdırılmış təzə Naxçıvan tərəvəzləri indi regionumuzun hər yerində və Bakı şəhərində də özünə geniş alıcı toplamışdır.

***İlin bu vaxtında marketdən bir kiloqram təzə pomidor alanda çox vaxt satıcını yadda saxlayıb gələn dəfə bir də ona yaxınlaşırıq. Bu məhsulların vitrinə qədər gəlib çatmasında nə qədər adamın gərgin əməyi olduğunu isə onun sahibkarı, istixanalarda 24 saat növbə çəkən insanlar, Naxçıvanın ən ucqar kəndinə sifariş çatdıran nəqliyyatçılar hamıdan yaxşı bilir. Şübhəsiz, bu işin ərsəyə gəlməsinə hamıdan çox qayğı göstərənlə birgə.***

**Əli CABBAROV**

Memarlıq incilərimiz

# Nəqşi-cahanda adına türbə ucaldılan Yusif Küseyir oğlu kim olub?

***Uşaqlıq illərində tez-tez Naxçıvan şəhərinə gələrdik. Memarlıq abidələri ilə zəngin olan Ordubadda yaşayan biri kimi müasir Naxçıvan diqqətimi fərqli aspektlərdən çəkirdi. Hər dəfə Naxçıvana gələndə evlərin ardından görünən bir türbə məni valeh edirdi. O zamanlar bu türbə haqqında məlumatım yox idi. Sonralar tarix kitablarından öyrəndim ki, sən demə, bu abidə Yusif Küseyir oğluna aid imiş. Naxçıvan şəhərinin mərkəzində yerləşən və yerli camaat arasında "Atababa günbəzi" adı ilə tanınan Yusif Küseyir oğlu türbəsi 1162-ci ildə inşa olunub. O, ustad memarın bu günümüzə gəlib çatan ilk böyük əsəri kimi çox qiymətlidir. Sərdabə və yerüstü qülləvarı hissədən ibarət olan türbənin kitabəsində onun kimin şərəfinə və hansı tarixdə inşa olunduğu öz əksini tapıb: "Bu türbə xacə, şanlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Kuseyir oğlunundur". Digər kitabədə isə "Bənna Əcəmi Əbubəkir oğlu Naxçıvaninin əməlidir" sözləri yazılıb.***

İllər sonra türbəni ilk dəfə ziyarət etdim. Mənə buranın dizaynı və fərqli aurasını hiss etmək lazım idi. Bir memar gözüylə türbəni müşahidə edə bilməsəm də, onun necə qiymətli yadigar olması gerçəyini anlaya bilirdim. Və o zamandan mənim kimi, bir çoxlarını da düşündürən "Yusif Küseyir oğlu kimdir?" sualının cavabını aramağa başladım. Və sualıma cavab almaq üçün AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli ilə həmsöhbət oldum.

Fəxrəddin müəllim bizə türbə haqqında bu məlumatları verdi: "Yusif Küseyir oğlu türbəsi 1162-ci ildə Əcəmi Əbubəkir oğlu Naxçıvani tərəfindən tikilib. Digər qaynaqlardan Yusif Küseyir oğlu haqqında bizə məlumatlar gəlib çıxmadığı üçün onun şəxsiyyəti haqqında aydın təsəvvür yaratmaq mümkün deyildir. Ancaq kitabənin verdiyi məlumatlar müəyyən fikir söyləməyə imkan verir. Kitabədə o, "xacə, ər-rəis əl-əcəl" ("xacə" – tanınmış rəis) titulları və bir sıra epitetlərlə ("mömin", "islamın gözəlliyi", "şeyxlərin başçısı") təqdim olunub. Orta əsrlərdə "xacə" titulu ilə böyük tacirlərə, görkəmli alimlərə müraciət edilirdi. Bu titulu daşıması onun tacirlər gildiyasının başçısı, "rəis" titulunu daşıması isə Atabəylər dövlətinin paytaxtı olarkən Naxçıvan şəhərinin rəhbəri olduğunu göstərir. Eldənizlərin hakimiyyəti (1136-1225) dövründə şəhərləri hökmdarın müavini sayılan valinin adından idarə edən rəislər, bir qayda olaraq, yerli, tanınmış nəsillərdən seçilirdi. Göründüyü kimi, Yusif Küseyir oğlunun tutduğu şəhər rəisi vəzifəsi kifayət qədər nüfuzlu vəzifə imiş. Həmçinin kitabədə adına əlavə olunan "şeyxlərin başçısı" sözləri isə Yusif Küseyir oğlunun şəhərdə yaşayan, ali ruhani təbəqəsinə və həmin vaxt Naxçıvan şəhərində fəaliyyət göstərən müxtəlif sufi təriqətlərinə məxsus xanəgahların başçılarına rəhbərlik etdiyini göstərir".

Dəyərli fikirlərindən ötrü Fəxrəddin müəllimə minnətdarlığımızı bildirdik. Və bu mövzuyla bağlı araşdırmalarımızı davam etdirdik.

Öyrəndik ki, əvvəllər "Küseyri" titulu daşıyan bir çox İslam və sufi alimləri yaşayıblar. Hətta onlardan bəzilərinin adına türbələr də ucaldılıb. Ağlımıza belə bir sual gəldi. Görəsən, Yusif Küseyir oğlu həmin İslam alimlərinin nəslindən ola bilərmi?

Gəlin bu sualı cavablandırmağı bu sahənin tədqiqatçılarının öhdəsinə buraxaq.

Yusif Küseyir oğlu türbəsinin memarlığı ilə bağlı suallarımıza cavab tapmaq üçün Qadir Əliyevin yazdığı "Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq" adlı kitaba müraciət etdik. Kitabda Yusif Küseyir oğlu türbəsi barədə aşağıdakı məlumatlar verilir: "İlk baxışdan təmiz həndəsi biçimi və gözəl harmonik quruluşu ilə diqqəti cəlb edən türbə ikiqatlıdır. Türbənin hər iki qatı planda düzgün səkkizbucaqlıdır. Səkkizüzlü plana uyğun olan sərdabə yastı günbəzlə örtülüb. Yüksək mühəndis həllinin nəticəsidir ki, Yusif Küseyir oğlu türbəsi Azərbaycanın qülləvarı türbələri içərisində üst piramidal örtüyü 800 ildən artıq bir müddətdə salamat qalan tək abidədir".



Bəli, Yusif Küseyir oğlu türbəsi ilk baxışdan tutumunun həndəsi təmizliyi, nisbətlərinin incəliyi və harmonik gözəlliyi ilə diqqəti cəlb edir. Bişmiş kərpicdən tikilmiş türbə yüksək tikinti texnikası ilə seçilir.

Türbənin bütün səkkiz səthi müxtəlifşəkilli həndəsi ornamentlərlə bəzədilib. Bu ornamentlər kiçik kərpiclərdən quraşdırılıb, sonra gəc məhlulu ilə tavalar şəklində birləşdirilərək səthlərin üzərində möhkəmləndirilib. Quruluşu etibarilə türbənin yalnız bir səthi – qərb tərəfə baxan səthi başqa şəkildə həll edilib. Burada türbənin giriş qapısı yerləşdirilib. Çatmatağ şəkilli bu qapı üzərində haşiyələr formasında verilmiş həmin hissə çıxıntılar vasitəsilə bir portal şəklini alıb. Türbənin rəis, xacə Yusif Küseyir oğlunun xatirəsinə ithaf olaraq hicri 557-ci ildə, miladi 1162-ci ildə tikildiyini göstərən kitabə bu səthin yuxarı hissəsində yerləşdirilib. Türbənin səthlərindən yuxarı hissə qurşaq şəklində ayrılıb və burada da kitabə yerləşdirilib. Kufi xətlə yazılmış bu kitabənin giriş qapısından sol tərəfdəki hissəsində memarın adı yazılıb: "Naxçıvanlı memar Əcəmi Əbubəkir oğlu".

Yusif Küseyir oğlu türbəsinin interyeri bəzədilməyib. Onun bayır taxçalarının içərisi isə kərpicdən yığılmış sıx həndəsi naxış hörmələri ilə üzlənib. Taxçaların üstündə gövdəni dövrələmə yazı qurşağı qapayır. Öz incəliyi və dekorativliyi ilə bu kitabə zolağı gövdə ilə örtük arasında bir keçid yaradır.

Rahibə Əliyevanın "Memar Əcəmi Əbubəkir oğlu Naxçıvani" adlı kitabında oxuyuruq: "Yusif Küseyir türbəsi həcm etibarilə bir o qədər böyük tikinti olmasa da, ümumi kompozisiya aydınlığı, yüksək səviyyəli inşaat işləri, gözəl daş nəqqaşlıq işləri memar Əcəminin yüksək sənətkarlığından xəbər verir. Türbənin taxçalarının səthində kərpic dekorun "girih" adlanan xüsusi həndəsi ornamentlərindən istifadə olunmuşdur. Girih naxışlarını əmələ gətirən elementlər həndəsi formalardan (çoxbucaqlar, yaxud ulduzlardan) ibarətdir. Ciddi riyazi qanuna tabe olan bu naxışlar bütünlüklə xətlərin bir-biri ilə bağlı ahəngdar birləşməsindən yaranır".

*Hər dəfə onun yanından keçəndə, ya da o tərəflərə yolumuz düşəndə bizə binaların ardından boylanan keçmişimizə baxıb fəxr edirik. Keçmişimizin şahidi olan gözəl mədəniyyət abidələri üslubunda yaradılan müasir mədəniyyətimizin memarlarına isə minnətdarlığımızı bildiririk.*

✍ **Nərgiz İSMAYILOVA**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 8 aprel 2015-ci ildə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın axırıncı satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 320,7 kv.m torpaq sahəsində yerləşən 259,54 kv.m ümumi, 170,3 kv.m əsas, 89,24 kv.m köməkçi sahədən ibarət qeyri-yaşayış binası (hamam) | Şərur rayon Yuxarı Aralıq kəndi | 20.000 | 20.000 | 1000 |
| 2. | 1415,21 kv.m torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı , 73,94 kv.m yaşayış, 54,92 kv.m qeyri-yaşayış, 37,71 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayon Yuxarı Aralıq kəndi | 15.000 | 15.000 | 750 |
| 3. | 634 kv.m torpaq sahəsində yerləşən 2 mərtəbəli, 6 otaqlı, 147,6 kv.m yaşayış, 114,90 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonundakı Mahmudkənd | 14.400 | 14.400 | 720 |
| 4. | 1215,16 kv.m torpaq sahəsində yerləşən 2 mərtəbəli, 3 otaqlı, 73,2 kv.m yaşayış, 71,62 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayon Yengicə kəndi | 7.000 | 7.000 | 350 |
| 5. | 1234 kv.m torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 48,00 kv.m yaşayış, 17,63 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayon Xələc kəndi | 6.000 | 6.000 | 300 |
| 6. | 0,1984 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 47,04 kv.m yaşayış, 21,6 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayon Cəhri kəndi | 12.000 | 12.000 | 600 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan fərdi yaşayış evlərinin ilkin satış qiymətinin 5 % məbləğində beh "Bank of Azerbaijan" ASC 12 saylı Naxçıvan filialında olan AZ 98 AZEJ 00800450190909001 nömrəli hesaba və Kapital Bank Babək rayon filialında olan AZ 37 NABZ 01350100000000001944 nömrəli hesaba 3 aprel 2015-ci il tarixədək ödənilməlidir. Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ 12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Heydər Əliyev prospekti 6) 3 aprel 2015-ci il tarixə qədər hər gün saat $9^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *"Bank of Azerbaijan" ASC-nin 12 saylı Naxçıvan filialı və Kapital Bank Babək rayon filialı tərəfindən müəyyən edilmiş behin hesaba ödənilməsini təsdiq edən ödəmə sənədinin surəti;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 8 aprel 2015-ci il tarixdə, saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz. Əlaqə telefonu: 545-01-38***

İdman xəbərləri

## Karate-do Federasiyasında yığıncaq

*Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyası yığıncaq təşkil edib. Yığıncaqda federasiyanın nəzdində fəaliyyət göstərən məşqçi-müəllimlər, idmançılar və nazirlik nümayəndələri iştirak ediblər.*

Tədbiri giriş sözü ilə açan federasiyanın sədr müavini Nəriman Quliyev əvvəlcə 2014-cü ildə görülən işlər və qazanılan uğurlar barədə məlumat verib. Federasiyanın ötən il gördüyü işləri dəyərləndirən sədr müavini fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədən sonra federasiya qarşısına qoyulan vəzifələr və onların yerinə yetirilməsi üçün cari ildə görüləcək işlər barədə danışıb.

Sonra Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov çıxış edərək ötən il nazirlik və Karate-do Federasiyasının birgə təşkil etdiyi tədbirlərdən, yarışlardan bəhs edib.

## İdmançımıza "idman ustası" dərəcəsi verilib

Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı qazanılan uğurlarda özünü aydın şəkildə göstərməkdədir. Cari ilin ilk 2 ayında ölkə birinciliklərində, eləcə də beynəlxalq arenalarda qazanılan uğurlar diqqətdən kənarda qalmayıb. Ötən ay boks üzrə gənclər arasında keçirilən Azərbaycan çempionatının qalibi adını qazanan dəri əlcək sahibimiz Sərxan Əliyev Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən mükafatlandırılıb. Belə ki, boksçumuza "Azərbaycan Respublikasının idman ustası" dərəcəsi verilib. Bu dərəcəyə layiq görülən Sərxan Əliyev bunları dilə gətirdi: "2015-ci ildə karyeramda yeni səhifələr yazıldı. İlk olaraq gənclər arasında ölkə çempionu adını qazandım. Ardınca "idman ustası" dərəcəsinə layiq görüldüm. Qarşıda məni daha çətin yarışlar və turnirlər gözləyir. İndi daha səylə çalışıb, çıxış edəcəyim yarışları qələbə ilə başa vurmalıyam. Təbii ki, qazandığım uğurların arxasında göstərilən diqqət və qayğı mühüm rol oynayır. Yaradılan şəraitə görə minnətdarlığımı bildirirəm. Biz idmançılar daim çalışmalıyıq ki, göstərilən etimadı doğruldaq".

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Hüseynova Ruhiyyə Nurəli qızının adına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 0032522 nömrəli çıxarış və AA-008031 nömrəli torpaq sahəsinin plan ölçüsü itdiyindən etibarsız sayılır.

* * *

Məmmədzadə Zahid Məmmədqulu oğlunun adına 15 dekabr 2008-ci ildə verilmiş AZE-06502496 seriya nömrəli Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 218